Təhsil Nazirliyi Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi ilə birgə Bağça-məktəb-lisey kompleksində “Təhsil siyasəti forumu” layihəsi çərçivəsində “İcbari təhsil”, “Özəl təhsil”, “Təhsilin dəyərləri” mövzuları ətrafında “Təhsil haqqında” Qanun layihəsinin ictimai müzakirəsini keçirib.

Tədbirin məqsədi ölkədə aparılan təhsil islahatlarına dəstək vermək, təhsildə maraqlı tərəflərin fəallığını artırmaq və bu istiqamətdə ictimaiyyətin fikirini öyrənməkdən ibarət olmuşdur.

Müzakirələrdə məktəb direktorları, müəllim, valideyn və şagirdlər, eləcə də qeyri hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər. Müzakirələr zamanı səslənmiş fikir və təkliflərin müvafiq dövlət qurumlarına təqdim olunması qərara alınıb.

Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşları iştirakçıların suallarını cavablandırılıblar.

Qeyd edək ki, “Təhsil siyasəti forumu” layihəsi çərçivəsində növbəti müzakirələr aprelin 30-da Əli Bayramlı şəhərində keçiriləcək.